# Gənclərimiz ölkədə həyata keçirilən uğurlu siyasəti dəstəkləyirlər

**Ulu öndər Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən sayırdı. 1995-ci ildə isə Ulu Öndər Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüşdü. 2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk Forumu keçirilmiş və Ümummilli Lider tədbirdə şəxsən iştirak etmişdi. 1 fevral 1997-ci il tarixdə Forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər "2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncam imzalamışdı. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.**

*Bu gün Azərbaycan gəncliyinin önündə böyük qapılar, yollar açılıb. Tarixi, milli mənəvi dəyərlərimiz, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, eyni zamanda, ölkəmizin zəngin resursları gənclərimizin inkişafı üçün müvafiq şəraiti yaradır. Gənclərimiz ölkədə həyata keçirilən uğurlu siyasəti dəstəkləyirlər.*

**Ramil Rüstəmov,**
**YAP Nizami rayon təşkilatı Gənclər Birliyinin İdarə Heyətinin üzvü:**



- "Hər bir xalq özünün xoşbəxt gələcəyini, ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir". Söhbətə ulu öndər Heydər Əliyevin bu kəlamları ilə başlamağım təsadüfi deyil. Çünki Ulu Öndərin əsasını qoyduğu gənclər siyasəti bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli lider Heydər Əliyev həmişə gənclərə güvənərək onlara böyük etimad göstərmişdir. Azərbaycanda gənclər siyasəti həmişə dövlət siyasətinin əsas tərkib hissəsi kimi xüsusi yer tutur. Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını hər zaman öz üzərində hiss edir. Bu gün də Azərbaycan gəncliyi dövlət tərəfindən göstərilən qayğını görür. Məhz ölkə başçısı cənab İlham Əliyevin imzaladığı sərəncamlar, təsdiq etdiyi gənclər haqqında Dövlət Proqramları, apardığı uğurlu islahatlar buna bariz nümunədir.



**Hüseyn Hüseynov,**
**bank işçisi:**

- Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətədavamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir. Məhz bu reallığı nəzərə alaraq Azərbaycanın dövlət siyasətində gənclərlə iş prioritet sahələrdən biri kimi daim diqqətdə saxlanılır. Bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə aktiv iştirak edir, quruculuğa layiqli töhfələr verirlər. Azərbaycan dövlətinin gənclər siyasətindən danışarkən Prezident İlham Əliyev tərəfindən 2005-ci ildə imzalanmış "Azərbaycan gəncliyi 2005-2009-cu illərdə" və 2011-ci ildə imzalanmış "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramları və ən əsası ötən il imzalanan "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam xüsusi qeyd edilməlidir. Həmin Sərəncam və proqramlar dövlət başçısının Azərbaycan gəncliyinə münasibətinin birbaşa təzahürüdür. Dəfələrlə səslənən bu fikrə mən də şərikəm ki, cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu gənclər siyasəti dünya dövlətlərinə nümunə ola biləcək siyasi kursdur.

**Mehti Namazov,**
**İqtisadiyyat Nazirliyi Bakı Biznes Tədris Mərkəzinin şöbə müdiri:**



- "Siz gəncsiniz. Bu gün sizin qarşınızda böyük vəzifələr durur. Amma sonra gələn nəsillər sizin təcrübənizdən, yaratdığınız işlərdən istifadə edəcəklər. Siz də Azərbaycanın həyatında öz xidmətlərinizi göstərərək, ölkəmizi inkişaf etdirərək, sonra gələn nəsillərə böyük irs qoyacaqsınız." Bu fikirlər müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin Azərbaycan Gənclərinin I Forumunun 1-ci ildönümü münasibətilə Forum nümayəndələrinin bir qrupu ilə görüşü zamanı söylədiyi yekun nitqində yer almışdır. Bu gün isə ilk Forumun keçirilməsindən artıq 20 il ötür. Bu dövr ərzində Azərbaycan gəncliyi böyük uğurlar qazanmışdır. Belə ki, Ümummilli Liderimizin Azərbaycan Respublikasının tarixinə günəş kimi daxil olması ölkə gəncliyinin inkişafından da yan keçməmiş, parlaq nəticələrə səbəb olmuşdur. Sevindirici haldır ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu baxımdan möhtərəm Prezidentimiz İlham Əliyevin yanvar ayının 29-da Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşünü xüsusi vurğulamaq lazımdır.

**Arif Məmmədov,**
**"EKOL Mühəndislik Xidməti" QSC-nin mühəndisi:**



- Deyə bilərəm ki, sürətlə inkişaf etməkdə olan ölkəmizdə sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakı nəzərə çarpır və burada təbii ki, dövlətin də gənclər üzərində diqqət və qayğısı böyük rol oynayır. Bu gün gəncliyin innovativ potensialından geniş istifadə olunaraq cəmiyyətin maraqlarının təmin edilməsinə şərait yaradılır. Belə ki, hazırda istənilən sahədə gənclərin fəallığına rast gəlmək olar. Azərbaycanda həyata keçirilən gənclər siyasəti çox uğurlu bir modeldir. Mən bu gün tam əminliklə deyə bilərəm ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti bütün dövlətlər üçün nümunə ola bilər. Dövlətimiz çalışır ki, heç bir gənc bu diqqət və qayğıdan kənarda qalmasın, yaradılmış imkanlardan maksimum faydalansın. Bu gün gəncliyin innovativ potensialından geniş istifadə olunaraq cəmiyyətin maraqlarının təmin edilməsinə şərait yaradılır. Ümummilli lider Heydər Əliyev həmişə gənclərimizə böyük ümidlər bəsləyirdi və dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Ölkəmizdə gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilib, Azərbaycan gənclərinin təşkilatlanması əsas məqsədlərdən biri kimi qarşıya qoyulub. Cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət gənclər siyasəti bu gün gənclərin ölkə həyatının bütün sahələrindəki fəallığını daha da artırıb. Son olaraq 2 fevral - Gənclər Günü münasibətilə bütün ölkə gənclərini təbrik edirəm.

✍ **Orxan Vahidoğlu, *"İki sahil"***